Azərbaycan Respublikasının

Prezidenti yanında

Elmin İnkişafı Fonduna

EİF-2011-1(3)-82/79-5 layihə rəhbəri

Fərəcullayeva Elmira Nadir q. tərəfindən

# ELMİ HESABAT

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən "İCOS Onomastik elmlər üzrə XXİV Beynəlxalq Kongresdə məruzə ("Jorj Sandın "Koroğlu" Azərbaycan dastanına onomastik yanaşması (3-9 sentyabr 2011-ci il, Barselona, İspaniya)" layihəmi (EİF-2011-1(3)-82/79-5) dəstəkləyib maliyyələşdirilmişdir.

Konqresin açılışı Barselona Universitetinin qədim binasında keçirilmişdir.Universitetinin "Paranimf" zalında(XIV əsr) konqresin iştirakçılarlnı Kataloniyanın mədəniyyət naziri cənab Ferran Maskarell,Barselona Universitetinin rektoru canab Kalves Korreras, "Estudes Katalans" elmi tədqiqat institutunun prezidenti cənab Salvadore Jine, onomastika üzrə Beynəlxalq cəmiyyətinin presidenti xanım Şeyla Embelton salamlayiblar.Plenar iclasında xanım Helen Kerfut (Kanada) çox maraqlı akademik məruzə ilə (Toponimika və idarəetmə:meydanlardan planetlərə) çıxış elədi.

Konqresin beş günü ərzində universitetin auditoriyalarda,daimi stol arxasında müxtəlif ölkələrin nümayəndələri,fəxri akademiklər ilə,professorlarla onomastika üzrə söhbətlər və görüşlər keçirilirdi.

Konqresin coğrafi baxımından çox geniş nümayəndələri əhatə olunmuşdur və iştirak edirdi. Azərbaycandan Elmin İnkişafı Fondunun sahəsində təkcə mən iştirak edirdim.

Gün ərzində on bir bölmələrdə iş aparılırdı: 1)Terminologiya;2)Onomastika nəzəriyyəsi;3)Onomastika və Lingvistika;4)Adlar və cəmiyyət;5)Antroponomastika;6)Toponomastika;7)Onomastika və tarix;8)Onomastika və coğrafiya;9)Onomastika və mədəniyyət;10)Kartoqrafiya və

coğrafi adlar:informasiya menecmentin yeni platforması;11)Onomastik və standartlaşma prosesi.

Mənim çıxışım Onomastika və Mədəniyyət bölməsində 2011-ci il sentyabr ayının 6-sında olub.Mənimlə birlikdə həmin bölmədə onomastika üzrə həmkarlarım da çıxış etmişdilər: Sale Giorgio ,Pisa(İtaliya); Gonsales Kruz ,Piur(İspaniya); Marina Kiyeniya,Moskva (Rusiya); Grant Smit ,Vaşıngton (ABŞ); Valentina Faggoni,Düsseldorff (Almaniya); Birgit Falk-Kelgurt,Göteburg(Almaniya); Alyona Fomenko,Kiyev (Ukraina); Gameltoff Peder,Kopengagen (Daniya); Yanis Gurdon,Qahirə(Misir); Erkan Akgöz,Selcuk Universiteti (Türkiyə); Ayla Gökməz,Bursa(Türkiyə); Şərəf Gara, Uludağ Universiteti(Türkiyə); Andre Lapyer,Monpelye (Fransa).

Məruzəm xarici həmkarlar üçün çox maraqlı və həm də yenilik kimi qəbul olunmuşdur.

Fransız yazıçısı Jorj Sandın  azərbaycan Koroglu dastanına müraciəti bəzi alimlərdə böyük maraq oyatmışdı və onlar çoxlu sual verirdilər.Jorj Sandın Koroglu adına təkcə "kor oğlu" kimi yox, "kor taleyin oğlu" kimi yanaşması artefaktın onomastik kodlaşdırılması kimi sübut edir.

"İCOS Onomastik elmlər üzrə XXİV Beynəlxalq Kongresdə" iştirakım Sand tədqiqatçıları tərəfindən ədalətsiz qarşılınan Jorj Sandın "Köroğlu" dastanına olan dolğun rəftarını bir daha bəyan etmək imkanı yaratmışdır.Elmi konqresdəki iştirakımın əsas nəticələri- geniş ziyalı və tələbə kütləsində məqalə ilə tanış olmaq imkanı yaradılıb. Məruzə bütövlükdə İCOS Onomastik elmlər üzrə XXİV Beynəlxalq Kongresin e-kitabında İSBN çap olunacaq.

Konqresin proqramı və məruzəmin tezisı aşağdakı saytda yerləşir:

ftp://ftp.icc.cat/icos/GuiaDeResums_ICOS.pdf -səh. 70.

ftp://ftp.icc.cat/icos/PROGRAMACIO/2011_ICOS_Agenda.pdf -səh. 44

EİF-2011-1(3)-82/79-5 layihə rəhbəri

Fərəcullayeva Elmira Nadir q